BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Humanitar elmlər seriyası 2013

UOT 93/94

# XIX-XX ƏSRLƏRDƏ ÇARİZMİN AZƏRBAYCANDA MİLLİ QIRĞIN SİYASƏTİNİN TARİXİ MƏRHƏLƏLƏRİ

**X.İ.ƏSGƏROVA**
***Gəncə Dövlət Universiteti***
***xayala.askerova@mail.ru***

*Məqalə çarizmin Azərbaycanda milli qırğın siyasətinin tarixi mərhələlərinə həsr edilmişdir. Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqların zəbti ilə müşayiət olmuşdur. Burada əsas məqsəd Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini daim yadda saxlamaqdan və iki əsr davam edən soyqırımı gələcək nəsillərə olduğu kimi çatdırmaqdan ibarətdir. Çünki hələ də dünya miqyasında ermənilərin saxta "tarixi" bizim gercək tariximizi üstələyir .*

**Açar sözlər:** Azərbaycan, Rusiya, Qarabağ, deportasiya, soyqırım

Azərbaycan öz təbii zəngınliyi, xammal ehtiyatı, həmçinin əlverişli strateji-coğrafi mövqeyi ilə qonşu dövlətlərin diqqətini özünə cəlb edirdi. XVIII əsrin əvvəllərinə qədər Rusiyanin hərbi-siyasi təcavüz üçün qüvvəsi olmadığından Azərbaycana qarşı yalnız iqtisadi siyasət həyata keçirirdi. Lakin bu siyasətin az əhəmiyyətli olduğunu başa düşən I Pyotr hərbi işğal yolu ilə Xəzəryanı bölgəni ələ keçirməyi qərara aldı. Bu cəhdlərin sonu 1723-cü ildə Bakının işğalı ilə nəticələndi.

Əsasən müsalmanlardan ibarət olan yerli camaatın narazılığını və müqavimətini görən I Pyotr öz planlarını həyata keçirmək üçün, necə olursa-olsun Gilanda, Mazandaranda, Bakı və Dərbənddə ermənilərin və xristianların yerləşdirilməsini vacib sayırdı. Çar Pyotr Bakıya və ona yaxın yerlərə xaçpərəstləri köçürməklə buarnın etnodemoqrafik durumunu dəyişdirmək siyasəti yeritməyə başladı. O ölümündən qabaq, 10 noyabr 1724-cü ildə üç erməni katalikos İsayya ilə birlikdə qəbul etmiş, ermənilərə əl tutmaq və Xəzəryanı əyalətlərdə yerləşmək barədə onların xahişini dinləmişdi. Ermənilər heç bir ödənş vermədən Gilan, Salyan, Bakı və Dərbənddə yerləşmək üçün çarın icazəsini almaq istəyirdilər (1, 478).

Beləliklə, tarixi qaynaqlar "Pyotrun vəsiyyəti" adlanan sənədin də, onun qarşıya qoyduğu bədnam niyyətlərin də (Qafqazı "zəbt və işğal etmək ", "İslam

əqidəsini Asiyadan uzaqlaşdırmaq", "xristian dini əqidəsini və mədəniyyətini orada yaymaq " və bu kimi) gerçək olduğunu üzə çıxardır .`

Belə buyruq və göstərişlərin, tarixçilikdə "I Pyotrun vəsiyyətnaməsi", Sovet tarixçiliyində bu vəsiyyətnamənin varlığı və gerçək olması bir sıra başqa tarixi qaynaqlar kimi inkar edilir, onun çar Pyotra aid olmadığı bildirilirdi. Ancaq XVIII-XIX əsirlər boyunca çar Rusiyasının bu vəsiyyətnamə ilə (müəllifin kimliyindən asılı olmayaraq) bir bütövlük yaratmaqdadır. Əsası Pyotr tərəfindən qoyulan bu siyasəti sonralar Rusiyanın digər çarları həyata keçirdi. 1768-ci ildə II Yekaterina ermənilərin himayə edilməsi barədə əmr imzalayır. IX-XIX əsrlər ərzində öz dövlətinə nail olmayan ermənilər dövlətlərini yaratmaq məqsədinə çatmaq üçün Rusiyanın imperiya siyasətinin həyata keçirilməsində alət rolunu oynadılar.

1813-1828-ci illər Rusiya ilə İran arasında gedən iki müharibənin (1804-1813, 1826-1828) sonunda imzalanmış Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələri Azərbaycan xalqının tarıxində faciəli rol oynamış və Azərbaycanın parçalanmasına gətirib çıxarmışdır. Azəbycanın şimalı, Rusiyanın, cənubu isə İranın idarəçiliyinə keçmişdir. Türkmənçay müqaviləsinin XV bəndinə əsasən İrandan ermənilərin İrəvan, Qarabağ və Naxçıvana kütləvi şəkildə köçürülməsi başlanılır. Bunun da nəticəsində həmin ərazidə məskunlaşmış azərbaycanlılar öz yurd-yuvalarından məhrum edilir. Türkmənçay müqaviləsinindən dərhal sonra imperator I Nikolay 21 mart 1828-ci ildə İrəvan və Navçıvan xanlıqlqrının ərazisində "Erməni əyalətinin" yaradılması haqqında əmr imzalayır (2, 166-167).

Ermənilər 1905-1907-ci illərdə məqsədyönlü milli qırğın aktlarını, Bakı, Şuşa, Zəngəzur, İrəvan, Ordubad, Naxçıvan, Eçmiədzin, Cavanşir və Qazaxda azərbaycanlıların yurd-yuvalarından çıxarılması aksiyasını həyata keçiriblər. 1905-1906-cı illərdə İrəvan, Gəncə quberniyalarının 2000, Şuşa, Cəbrayıl və Zəngəzurun isə 75 azərbaycanlı kəndini ermənilər talan ediblər. Bu hadisənin baş verməsini sübut edən faktlar M.S.Ordubadinin "Qanlı illər", M.M.Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman müharibəsi" və s. kitablarda öz əksini tapıb (3, 7-8).

1918-ci ilin mart–aprel aylarında qanlı hadisələr zirvə nöqtəsinə catıb. O aylarda ermənilər tərəfindən edilən cinayətlər Azərbaycan xalqının yaddaşında silinməz iz qoyub. Təkcə milli mənsubiyyətinə görə minlərlə dinc azərbaycanlı məhv edilir. Ermənilər evləri yandırır, insanları diri-diri oda atırdılar. Onlar tərəfindən milli memarlıq abidələri, məktəblər, məscidlər və digər tikililər dağıdılır. Azərbaycanlıların soyqırımı xüsusi qəddarlıqla Bakı, Şamaxı, Quba, Qarabag, Zəngəzur, Naxcıvan, Lənkəran və Azərbaycanın digər ərazilərində həyata kecirilir. Bu torpaqlarda kütləvi qaydada dinc əhali qırılmış, kəndlər yandırılmış, milli mədəniyyət abidələri məhf edilmişdir. 1918-ci ilin mart-aprelində Bakı, Şamaxı, Quba, Muğan və Lənkaranda ermənilər 30 mindən cox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşdur (4, 3-4).

Sovet hakimiyyəti illərində ermənilər adət etdikləri metodlarla aərbaycanların daim yaşadıqları Ermənistan SSR-dən çıxarılmasını, eləcə də qonşu respublikaların torpaqları hesabına öz ərazılərini böyütməkdə davam ediblər. 1943-cü ildə Tehranda keçirilən konfransda ermənilər İranda yaşayan ermənilərin Sovetlər birliyinə köçürülməsinə icazə verilməsi xahişi ilə SSRİ xarici işlər naziri Molotova müraciət edirlər. Bu məsələdə Stalinin razılığı faktiki olaraq azərbaycanlıların 1948-1953-cü illərdə kütləvi şəkildə Ermənistandan deportasiya olunmasının əsasını qoyur. Moskva istəyinə nail oldu. Ermənistanda azərbaycanlıların sayı azaldı. Bununla bərabər, Azərbaycanın qərb bölgələrinə-Daşkəsən, Goranboy, Şəmkir, Gəncə, Dağlıq Qarabağa habelə Bakıya Erməni ekspedisiyası gücləndi. Yeni sənaye mərkəzlərinə-Sumqayıta, Əli Bayramlıya, Şirvana, Mingəçevirə, Daşkəsənə başqa respublikalardan minlərlə adam, o cümlədən erməni köçürüldü.

Sovet imperiyasının Cənubi Qafqazda yeritdiyi antitürk siyasətinin bir təzahürü də Ermənistan və Gürcüstandakı qədim Azərbaycan torpaqlarında toponimlərin özgələşdirilməsinə geniş rəvac verilməsi idi.

1945-ci ildə Ermənistan rəhbərliyi iqtisadi əlaqələrin bağlılığını əldə bayraq edərək Qarabağın Ermənistana birləşdirilməsi məsələsini qaldırır, lakin həmin dövrdə bu cəhdlərlə öz məqsədinə çatmır. O zaman başqa bir taktika seçilir. 1941-1945-ci illər müharibəsi başa çatan kimi xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsinə başlanılır (5, 1). Belə ki, 1946-cı ildə Suriya, Yunanıstan, İran, Bolqarıstan və Rumınyadan 59 min 900, 1947-ci ildə isə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İraq və Livandan 35 min 400 erməni köçürülüb. 1947-ci ildə Ermənistan Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi Q. Arutyonov köçürülmüş ermənilərin yerləşdirilməsindəki çətinliklərdən şikayət edir və təklif edir ki, Ermənistanda yaşayan azərbaycanlılar Azərbaycanın pamıqçılıq rayonlarına köçürülsün. Guya bu köçürülmə həmin rayonlarda pambıq istehsalının artımına təsir göstərəcəkdir. İ.Stalin tərəfindən dəstəklənən bu ideya SSRİ Nazirlər Sovetinin iki qərarı ilə həyata vəsiqə qazandı. Həmin qərarlarda (1947) 1948-1950-ci illərdə Ermənistan SSR-dən 100 min Azərbaycanlının Kür-Araz düzənliyinə könüllü köçürülməsi nəzərdə tutulurdu. Heç bir səbəb, mexanizim və real şərait göstərilmədən statistik göstəricilərə əsasən 1948-ci ildə Azərbaycana 2 min 357 ailə, 1949-cu ildə 2 min 368 ailə, 1950-ci ildə isə 14 min 361 ailə köçürüldü. 1948-1950-ci illərdə köçürülən 8 min 110 ailədən yalnız 4 min 878 yaşayış yeri ilə təmin olunur. Ümumiyyətlə, 1948-1952-ci illər ərzində respublikamıza 100 mindən çox azərbaycanlı köçürülüb. Əsasən dağlıq ərazilərdə yaşamağa adət etmiş azərbaycanlılar düzənlik ərazisinin iqliminə uyğunlaşa bilmirdilər. Yaşayış yeri ilə təmin olunmamaq da öz təsirini göstərirdi. Köçürülənlər arasında yüzlərlə adam həyatla vidalaşırdı. Hətta belə şəraitdə məngənədə sıxılan azərbaycanlıların dağlıq ərazilərə, Qarabağa köçürülməsi barədə Azərbaycan rəhbərliyinə və Moskvaya dəfələrlə etdiyi müraciətlər mərkəzi orqanlar tərəfindən rədd edildi. Bax, bu pambıqçılığın inkişafı naminə könüllü köçürülmənin daha bir tərəfi...

Bununla yanaşı, 1948-ci ildə Suriya, Livan, Fransa, ABŞ, Misir, Bolqarıstan və Ruminyadan Ermənistana cəmi 10 min azərbaycanlı köçürüldü. Yuxarıda göstərilənlərdən ümumi nəticəyə gəlmək olar: Ermənistandan azərbaycanlıların köçürülməsi nə xaricdə yaşayan ermənilərin yerləşdirilməsi, nə də Azərbaycan-da pambıqçılığın inkişafı məqsədini daşımayıb. Bu hadisə sadəcə daşnakların köhnə ideyaları və arzuları monomillətçi dövlətinin yaradılması siyasətinin elementi idi (6, 438). 1953-cü ildə Stalinin ölümü azərbaycanlıların köçürülmə-si prosesini dayandırır. Ev-eşiklə təmin edilməyən, mövcud şəraitə dözə bilmə-yən köçürülmüş azərbaycanlılar ermənilər tərəfindən onlara qarşı kin və diskri-nimasiyaya baxmayaraq özlərinin dədə-baba yurdlarına qayıtmaq məcburiyyə-tində qalırdılar. Bu proses erməni şovinizminin yeni dalğasını alovlandırırdı. Azərbaycanlılara qarşı mənəvi terrorun həyata keçirilməsinə "start" verilir. Tədris müəssələrinin bağlanması, azərbaycanlıların təhsil bölmələrinin ləğvi, rəhbər vəzifəsində çalışan azərilərin erməni kadırlarla əvəz olunması, Azərbay-can kəndlərinin məişət və təsərrüfat ehtiyaclarına etinasız yanaşılması, anti-azərbaycan kompaniyasının aparılması (xüsusilə 1965-ci ildə "erməni genosi-dinin" 50-ci il dönümü zamanı) daşnak siyasətinin açıq təzahürü idi.

1988-ci ildən başlayaraq yenidənqurma, aşkarlıq prosesi antiazərbaycan əhval-ruhiyyəsinin və ərazi iddialarının yeni dalğasını yaratdı. 1945-ci ildə sınaqdan çıxarılmış, guya Ermənistanla Qarabağın iqtisadi cəhətdən bir-birinə bağlı olması barədə əsassız iddialarla erməni millətçiləri azərbaycanlıları Er-mənistandan qovmağa, Qarabağı isə Azərbaycandan ayırmağa başladılar. Moskva, Azərbaycanlılar və ermənilər arasında yaratdığı Dağlıq Qarabağ mü-naqişə ocağını alovlandırmaq məqsədilə hələ 40-cı illərdə Ermənistanda təşkil edilmiş Qarabağ hərəkatı,"Qarabağ komitəsinin" fəaliyyətini genişləndirmək üçün münasib şərait yaratdı. 1987-ci ilin oktyabrında Yerevanda Qarabağ komitəsinin ilk mitinqi keçirildi. Moskvada ermənilərin "Milli müqəddəratının müstəqil təyin edilməsi birliyi" və "siyasi məhbusların müdafiəsi üzrə erməni komitəsi" də bu istiqamətdə fəal iş görürdülər. Sovet imperiyası tənəzzül edərkən fəallaşmış erməni millətçilərinin ilhamçısı təkcə Moskva deyildi. Er-məni millətçi Daşnaksütyun partiyasının 1985-ci ilin dekabrında Afinada keçirilən XXIII qurultayı sərsəm "Böyük Ermənistan" mübarizəsini yenidən genişləndirmək üçün yaranmış əlverişli şəraitdən səmərəli istifadə etməyə, qüvvələri birləşdirməyə çağırmışdı. "Qarabağ komitəsinin" Azərbaycan SSR-də, xüsusən DQMV-də uzun müddət gizli fəalliyyət göstərən yerli "Kurunk" (Durna) təşkilatı bu millətçi təşkilatların bilavasitə köməyi ilə açıq, fəal mübarizəyə başladı. Dağlıq Qarabağ erməniləri arasında Ermənistanla birləş-mək ugrunda "Miatsum" (birləşmə) hərəkatı genişlənirdi. Ona "55-lər komitə-si" adlı orqan xüsusi rəhbərlik edirdi.

İki xalq arasında milli ədavətin ilk qurbanları bu dəfə də Ermənistanda yaşayan azərbaycanlılar oldular. Öz dədə-baba yurdunda yaşayan azərbaycanlı-ların kütləvi şəkildə qovulmasının son dördüncü mərhələsi başlandı. Bunun üçün əvvəlcədən xüsusi silahlı dəstələr hazırlanmışdı. 1987-ci ildə Ermənista-

nın Qafan və Mehri rayonlarından bu cinayətkar dəstələrin əməllərindən yaxa qurtaran ilk qaçqınlar Azərbaycana pənah gətirdilər. Onlar əsasən Sumqayıt şəhərində və onun ətrafındakı məntəqələrdə məskunlaşdılar. 1988-ci il fevralın 19-da Yerevanda antitürk mitinqi keçirildi. "Ermənistanı türklərdən təmizləməli", "Ermənistanda ermənilər yaşamalıdır" və s. millətci şuarlar irəli sürüldü. 1988-ci ildən başlayaraq kütləvi hədə-qorxular, fiziki güc, ölüm, kəndlərin talan edilməsi, yandırılması həyata kecirilir. Bukakda baş verən qanlı hadisələr nəticəsində 70 nəfər öldürülür, onların 21-i qadın, 6-sı da uşaq idi. Vardenis rayonunda isə 40 nəfər öldürüldü. Ermənistanın digər rayonlarından-Erevan, Masis, Kalinino, Kadjaran, Qafan, Kirovokan, Qorus, Sisian, Amasiya və Alaverdidən 250 min azərbaycanlı öz evindən-eşiyindən qovulur. 1905-1920-ci illərin tarixi yenidən təkrar olunur, qadın və uşaqlar, yaşlılar qarlı dağları aşaraq, dona-dona, insani itkilər verə-verə öz xilaslarını Azərbaycanda axtarırdılar. Yenidən 1948-1953-cü illərin tarixi təkrar olundu. İttifaqın mərkəzi hakimiyyətin qərarı ilə azərbaycanlı qaçqınların Qarabağda yerləşdirilməsinə icazə verilmir, onlar özlərinə çadır şəhərciyində sığınacaq tapırlar. 1991-ci il avqustun 8-də (18 fevral 1929-cu ildə Ermənistanın tərkibinə verilib). Sonuncu Azərbaycan kəndi Nüvədidən əhalinin çıxarılmasından sonra Ermənistan faktiki olaraq monomillətçi dövlətə çevrildi. "Türksüz Ermənistan" kimi daşnaq ideyası reallaşdı. 1988-ci ildən sonra Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində 7 rayon talan olundu, 1 millyona qədər adam doğma yurdundan didərgin düşdü. Tarixən Azərbaycan xalqına qarşı soyqırım siyasəti həyata keçirən erməni millətçiləri öz vəhşi simalarını bir daha bütün dünyaya nümayiş etdirərək Xocalını yerlə-yeksan etdilər. Qanlı yanvar qırğını həm rus, həm də erməni daşnaqlarının birgə apardıqları antitürk siyasətinin, türk soyqırımının tərkib hissəsiydi (7, 448).

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqların zəbti ilə müşayiət olmuşdur. Azərbycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini daim yadda saxlamalı və unutmamalıyıq. İki əsr davam edən soyqırımı gələcək nəsillərə olduğu kimi çatdırmalıyıq. Ötən dövr ərzində Azərbaycan dövləti tarixi gerçəklikləri, xalqımızın tam iki əsr boyu məruz qaldığı soyqırımı və etnik təmizləmənin dəhşətli miqyasını beynəlxalq aləmə çatdırmaq üçün xeyli iş görüb. Amma bu yetərli deyil. Çünki hələ də dünya miqyasında ermənilərin saxta "tarixi" bizim gerçək tariximizi üstələyir. Ən əsası odur ki, tarix boyu xalqımızın başına nələrin gətirildiyini, çəkdiyimiz müsibətlərin gerçək miqyas və mahiyyətini özümüz dərindən dərk etməliyik.

**ƏDƏBİYYAT**


1. Azərbaycan tarixi. S.Əliyarlının redaktəsi altında. I c., Bakı: Çıraq, 2009, 872 s.
2. Əliyev F., Həsənov U. İrəvan xanlıgı. Bakı: Şərq-Qərb, 2007, 144 s.
3. Ordubadi M.S. Qanlı illər: 1905-1906-cı illərdə Qafqazda baş verən erməni müsalman davasinin tarixi. Bakı: Qafqaz, 2007, 184 s.
4. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Bakı: QARTAL, 1998, 280 s.

5. 31 mart - Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Azərbaycan xalqına müraciət. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin xalqa müraciəti. “Azərbaycan” qəzeti, 2006, 29 mart.
6. Deportasiya. Azərbaycanlıların tarixi-etnik torpaqlarından deportasiyası. Bakı: Azərbaycan ensklopediyası. NBP,1998.
7. Yusifov Y.B., Vəliyev T.T. XX əsr Azərbaycan tarixi. II c., Bakı: Təhsil, 2009, 560 s.

## ЭТАПЫ РАЗРУШЕНИЯ НАЦИОНАЛЬНОЙ ПОЛИТИКИ ЦАРИЗМА

**Х.И.АСКЕРОВА**

**РЕЗЮМЕ**

Статья посвящена этапам национального истребления в Азербайджане русским царизмом. Все трагедии, происходившие в XIX-XX веках в Азербайджане, сопровождались захватом земли. Основная цель: помнить и передавать будущим поколениям геноцид проведенный против азербайджанского народа, потому что на мировом уровне, все еще фальшивая "история" армян затмевает нашу истинную историю.

**Ключевые слова:** Азербайджан , Россия , Карабах , депортация , геноцид

## THE HISTORICAL STAGES OF TSARISM’S NATIONAL MASSACRE POLICY IN AZERBAIJAN

**Kh.I.ASGAROVA**

**SUMMARY**

This article deals with the historical stages of tsarism’s policy of national slaughter in Azerbaijan.

The main purose is to inform future generations about the genocide procreated against the Azerbaijani people throughout two centuries.

**Key words:** Azerbaijan , Russian, Garabagh , deportation , genocide